***Miskin Abdal***
***Dağların***

Adəmdən cavandı, Nuhdan qocadı,
Bir sirdi, bilinməz yaşı dağların.
Tufana əyilməz, yada basılmaz,
Həmişə qara olar başı dağların.

Əhvalı necədi – bir səyyaddan sor,
Quşa cələ olur, ahulara tor,
“Can” desən – “can” deyər, “çor” söyləsən – “çor”,
Səs alar, səs verər ğuşu dağların.

Qüdrətdən yetibdi uca barata,
Sinəsi açıqdı elə, elata,
Mən Cüda Miskinəm, başımda xata,
Kəsif yollarımı qışı dağların.

***Abdal M. Dağların // Azərbaycan aşıqları. – Bakı: Çaşıoğlu, 2004. – S. 30.***